# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## BAŞ NAZİR "BREXİT"in TƏXİRƏ SALINMASINI TƏLƏB EDƏ BİLƏR



Böyük Britaniyanın baş naziri Boris Conson oktyabrın 19-dək Avropa İttifaqı (Aİ) ilə yeni saziş olmayacağı təqdirdə, Aİ-dən "Brexit"in daha sonraya tarixə salınmasını tələb edəcək. "Report" agentliyinin "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bunu vəkil Co Moemin "Twitter"də yayımladığı hökumət sənədi sübut edir.

Co Moem sərt "Brexit"ə qarşı çıxan və oktyabrın 19-dək Aİ ilə saziş olmayacağı təqdirdə Edinburq Sessiya Məhkəməsinə müraciət edən qrupun maraqlarını təmsil edir.

Məhkəməyə müraciət edilməsi Boris Consonun Böyük Britaniyanın oktyabrın 31-də Aİ-ni tərk edəcəyini dəfələrlə vurğulaması ilə bağlıdır.

İclas zamanı oxunan və Co Moemin sosial şəbəkədə göstərdiyi sənəddə bildirilir ki, şərtlərə əməl olunmayacağı təqdirdə, baş nazir oktyabrın 19-dan gec olmayaraq təxirəsalma istəyi ilə Aİ-yə məktubla müraciət edəcək.

Baş nazirin ofisi məhkəmə prosesinin hələ başa çatmadığını əsas gətirərək vəziyyəti şərh etməkdən boyun qaçırır.

## NİKOLAS MADURO: BMT HUMANİTAR YARDIMI GÖNDƏRMƏDİ



Venesuela prezidenti Nikolas Maduro BMT-nin ölkəsinə vəd etdiyi humanitar yardımı göndərmədiyini bəyan edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Venesuela mətbuatındakı xəbərlərə görə Nikolas Maduro BMT-ni və ölkəsinə sanksiya tətbiq edən ABŞ-ı tənqid edib.

BMT-nin verdiyi vədləri yerinə yetirmədiyini bildirən Nikolas Maduro ölkəsinə BMT tərəfindən hər hansı humanitar yardımın göndərilmədiyini qeyd edib.

Eyni zamanda, Nikolas Maduro müxtəlif yardımlar və əməkdaşlıq etdikləri Beynəlxalq Səhiyyə Təşkilatı, Panamerikan Səhiyyə Birliyi və BMT-nin Uşaqlara Yardım Fonduna isə təşəkkür edib.

ABŞ-ın Venesuelaya tətbiq etdiyi sanksiyalara da toxunan Maduro ölkəsinin qanunsuz və birtərəfli sanksiyalara məruz qaldığını vurğulayıb.

Bununla yanaşı, Nikolas Maduro bu sanksiyalara baxmayaraq səhiyyə sahəsində son texnologiya məhsullarına sərmayə qoymaqdan imtina etmədiklərini də diqqətə çatdırıb.

## CAMMU VƏ KƏŞMİRİN ŞİMALINDA KÜTLƏVİ MƏZARLIQ AŞKARLANIB



Pakistanın Hindistan tərəfindən işğal edilmiş Kəşmir bölgəsində kütləvi məzarlıq aşkar olunub. "Teleqraf.com"un verdiyi xəbərə görə, bu barədə Beynəlxalq İnsan Haqları Məhkəməsinin yayımladığı hesabatda bildirilib.

Məlumata görə, hesabatda Cammu Kəşmirin şimalında aşkar olunan məzarlıqda ən azı 2 900 nəfərin kütləvi şəkildə dəfn olunduğu açıqlanıb. Araşdırma Bandipora, Baramulla və Kupvara bölgələrini əhatə edən 55 kənddə aparılıb.

Məhkəmə Hindistan hökumətinə müraciət edərək, məsələnin araşdırılmasını tələb edib. Məsələ ilə əlaqədar Kəşmir regional rəhbərliyi və rəsmi Dehli məlumatlandırılıb.

ABŞ-da fəaliyyət göstərən insan haqları müdafiəçisi Anqana Çatterji hadisəylə əlaqədar müstəqil araşdırmanın başladılmasını tələb edib. O, Hindistan hökumətinin yayımlanan hesabatı gözardı etdiyini də vurğulayıb.

Kütləvi məzarlığın bəşəri cinayət olduğunu qeyd edən A.Çatterji bunun soyqırım olmasını da diqqətə çatdırıb. "Bandipora, Baramulla və Kupvarada tapılan məzarlar hind ordusu və hərbiləşdirilmiş güclərin bölgədə həyata keçirdiyi kütləvi qətliamların bir hissəsidir".

Eyni zamanda, A.Çatterji Hindistan ordusu tərəfindən törədilən qətliamda həlak olanların müsəlman olduğunu da diqqətə çatdırıb.

Məlumat üçün qeyd edək ki, Cammu və Kəşmirdə Hindistan ordusu ilə müstəqillik tərəfdarları arasında 1989-cu ildən bu yana baş verən qarşıdurmalarda ən azı 100 min insanın həlak olduğu ehtimal olunur.

## İRAQDA ETİRAZLAR ZAMANI 100-ə YAXIN İNSAN HƏLAK OLUB



İraqda davam edən hökumətə qarşı etiraz aksiyaları zamanı ölənlərin sayı 100-ə çatıb. "Sputnik" informasiya agentliyinin "Anadolu"ya istinadən verdiyi xəbərə görə, adının açıqlanmasını istəməyən İraqın Səhiyyə Nazirliyinin bir rəsmisi paytaxt Bağdad başda olmaqla bir çox vilayətdə keçirilən etiraz aksiyalarında ölənlərin sayının 100-ə çatdığını, yaralananların isə 2 minə yaxınlaşdığını bildirib.

Məlumata əsasən, yaralılar həbs təhlükəsinə görə dövlət xəstəxanalarına aparılmırlar, ona görə də ölənlərin sayının artacağı gözlənilir. Ölənlər arasında təhlükəsizlik qüvvələrinin nümayəndələri də var.

Bildirilir ki, baş nazirin istefasını tələb edən etirazçılara polislər sərt müdaxilə edirlər.

Bununla yanaşı, qeyd olunur ki, nümayişçilər hökumət qüvvələrini həqiqi güllələrdən istifadə etməkdə günahlandırırlar. Hökumət qüvvələri isə iddia edirlər ki, naməlum snayperlər həm nümayişçiləri, həm də təhlükəsizlik qüvvələrini hədəf alıblar.

Verilən xəbərə görə, etirazçılar hökumətin istefasını, ölkədə həyat şəraitinin yaxşılaşdırılmasını, səhiyyə, təhsil və əmək bazarındakı problemlərin həlli edilməsini, korrupsiya ilə mübarizə aparılmasını tələb edirlər.

Qeyd edək ki, İraqda oktyabrın 1-də yoxsulluq, işsizlik və korrupsiyaya etiraz olaraq hökumət əleyhinə nümayişlər başlayıb. Nümayişlərlə əlaqədar İranla sərhəddəki keçid məntəqələri bağlanıb.

## NÜVƏ MÜHARİBƏSİNDƏ 125 MİLYON İNSAN HƏYATINI İTİRƏ BİLƏR



Hindistan və Pakistan arasında nüvə müharibəsi olacağı təqdirdə 125 milyon insanın ölə biləcəyi ehtimal edilir. "TRT" telekanalının məlumatına görə, "Science Advances" jurnalında dərc olunan araşdırmada Hindistan və Pakistan arasında yarana biləcək nüvə müharibəsinin fəsadları müəyyən edilib.

Verilən xəbərə əsasən, araşdırmada milyonlarla insanın ölümü ilə yanaşı nüvə buludları səbəbiylə yer üzünə gələn günəş şüalarının 20-35 faizinin azala biləcəyi, bunun isə havanın temperaturunun 2-5 dərəcə aşağı düşməsinə səbəb olacağı vurğulanıb.

Nüvə silahının səbəb ola biləcəyi mümkün iqlim dəyişikliyi kənd təsərrüfatı məhsullarının 15-30 faiz azalmasına və aclığa gətirib çıxara bilər. Həmçinin bu fəsadların 10 ildən çox davam edə biləcəyi qeyd olunur.

Tədqiqatçı Alan Robk deyib: "Hindistan və Pakistan arasında Kəşmir qarşıdurması davam edir və insanlar hər ay sərhədlərdə həlak olurlar. Belə bir müharibə bütün dünyaya təhdiddir".

## NASA: İNSANLAR MARSDA HƏYATIN OLMASINA HAZIR DEYİL



ABŞ-ın Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) iki il ərzində Marsda həyatın olduğuna dair dəlillər əldə ediləcəyini, lakin dünyanın buna hazır olmadığını açıqlayıb. "Teleqraf.com" saytının verdiyi xəbərə görə, NASA-nın baş araşdırmaçısı Cim Qrin Marsda aparılan axtarışlarla bağlı son məlumatları yayımlayıb.

Məlumata əsasən, Cim Qrin bildirib ki, Avropa Kosmos Agentliyi (ESA) və NASA-nın 2020-ci ildə "qırımızı planet"ə göndərəcəyi missiya burada həyatın olmasına dair dəlillər aşkar edəcək, lakin dünya bu kəşfin yaradacağı təsirlərə hazır deyil.

Bu kəşfi XVI əsrdə yaşamış astronom Nikolay Kopernikin Yer kürəsinin Günəş ətrafında fırlanmasını sübut edən nəzəriyyəsi ilə müqayisə edən C.Qrin qeyd edib ki, Marsda kəşf ediləcək həyat elm adamlarını bir sıra suallar qarşısında qoyacaq.

Cim Qrin deyib: "Hansısa başqa bir yerdə sivilizasiyanın olmadığını düşünmək üçün heç bir səbəbimiz yoxdur. Çünki hər yerdə - bizim qalaktikamız xaricində də yeni qalaktikalar və planetlər kəşf edirik".

Bildirilir ki, ESA-nın "Exo Mars Rover" kosmos aparatı Yer kürəsi xaricində həyat axtarmaq məqsədilə Marsın səthini 2 metr qazaraq nümunələr götürəcək.

Eyni zamanda, NASA-nın "Mars 2020" aparatı isə bu planetdəki qayalardan nümunələr götürərək Yer kürəsinə göndərəcək. Bunlar Marsdan dünyaya gətirilən ilk nümunələr olacaq. ■

*Yeni nəşrlər*

# "Cərrahi xəstəliklər" elektron dərsliyi işıq üzü görmüşdür

Azərbaycan Tibb Universitetinin "Təbib" nəşriyyatı tərəfindən tibb fakültələrinin yuxarı kurs tələbələri üçün nəzərdə tutulmuş "Cərrahi xəstəliklər" elektron dərsliyinin I nəşri işıq üzü görmüşdür. Kitab 245,5 çap vərəqi və ya 1979 səhifədə A4 formatında çap edilmişdir. Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tibb Universiteti və tibb fakültələrinin müalicə-profilaktika fakültələrinin yuxarı kursları üçün təsdiq etdiyi tədris proqramı əsasında yazılmışdır. Cərrahi xəstəliklərə aid 29 bölmədən ibarətdir, yəni tədris proqramı tam həcmdə əhatə olunmuşdur. Təqdim edilən dərslik bəzi səciyyəvi cəhətlərinə görə fərqlənir. Birincisi, tələbələrin istəyini nəzərə alaraq dərslikdə hər mövzu 3 formada verilir: geniş mətn, qısa xülasə və sual-cavab. Bununla da dərslərin öyrənilməsi, qavranılması və mənimsənilməsi asanlaşmışdır. İkincisi, əlçatanlığı təmin etmək üçün dərslik elektron formada hazırlanmışdır.

Yeni dərslik böyük kollektiv - Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının akademik heyəti, universitetin digər kafedralarının nüfuzlu alimləri, ölkəmizin və Türkiyənin müvafiq sahələr üzrə görkəmli mütəxəssisləri tərəfindən tərtib olunmuşdur. Ümumilikdə dərsliyin yazılmasında 37 alim və mütəxəssis birbaşa iştirak etmişdir.

Dərsliyin yazılması ölkəmizin səhiyyə və ali tibb təhsili sistemlərində davamlı islahatların aparılması, tədris proqramlarının yenilənməsi, Avropa ali təhsil sisteminə qaçılmaz inteqrasiya zəminində tələbələrin və müəllimlərin istəkləri, zamanın tələbi əsasında həyata keçirilmişdir. Uzun illər tələbələr və müəllimlər arasında tədqiqatlar, açıq və gizli sorğular aparılmış, Avropa və Türkiyə universitetlərinin tədris proqramları və dərslikləri, xəstəliklərin diaqnostikası və müalicəsinə dair ən son beynəlxalq klinik protokollar əsasında müasir dərslik ərsəyə gətirilmişdir. Dərslik müəlliflərin çoxillik zəngin elmi-pedaqoji və həkimlik fəaliyyətinin məhsuludur.

Dərsliyin yazılmasının təşəbbüsçüsü qismində AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Nuru Yusif oğlu Bayramov çıxış etmişdir. Məhz onun ağır əməyi nəticəsində böyük müəlliflər heyəti formalaşdırılmış və olduqca vacib işə cəlb edilmişdir. Belə ki, kitabın ayrı-ayrı fəsillərini ölkəmizdə və dünyada tanınmış ünlü alimlər, mütəxəssislər - Malatyanın (Türkiyə) İnönü Universitetinin Qaraciyər Nəqli İnstitutunun direktoru, professor Sezai Yılmaz (Transplantasiya bölməsi), Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalının ürək-damar cərrahiyyəsi şöbəsinin rəisi Anar Əmrah (ürək-damar cərrahlığı bölməsi), tibb üzrə fəlsəfə doktoru, dosent Abbas Abbasov (Qalxanabənzər və qalxanabənzər ətraf vəzilərinin xəstəlikləri bölmələri), tibb elmləri doktoru, professor Adil Qeybulla (Qida borusu xəstəlikləri bölməsi), tibb elmləri doktoru, professor Saday Əliyev (Ağciyər xəstəlikləri bölməsi), tibb elmləri doktoru, professor Sürəddin Zeynalov ("Kəskin qarın" və "Peritonit" bölmələri), tibb üzrə fəlsəfə doktoru, dosent Ədalət Rüstəm (Nazik bağırsaq xəstəlikləri bölməsi), tibb elmləri doktoru, professor Eldar Əliyev (Yoğun bağırsaq xəstəlikləri bölməsi), tibb üzrə fəlsəfə doktoru, dosent Solmaz İmanova (Düz bağırsaq xəstəlikləri bölməsi) və b. iştirak etmişlər.

Kitab müəlliflərin şəxsi cərrahlıq fəaliyyətinin nəticələri - fotoşəkillər, cərrahi əməliyyatların fraqmentləri, çoxsaylı sxematik, faktoqrafik və alqoritmik materiallarla zəngindir. Hər bir xəstəliyin epidemiologiyası, etiopatogenezi, klinikası haqqında qısa zəruri məlumatlar verilmiş, pilləli və çoxmərhələli diaqnostika prosesi, müalicə və profilaktika prinsipləri, proqnozu barədə biliklər, sonda klinika-diaqnostika prosesinin xülasəsi (özəti) təqdim edilmişdir. Elmi-klinik biliklərin mənimsənilməsi və yoxlanması səviyyəsini təmin etmək məqsədi ilə hər bölmənin sonunda cavablı və izahlı test sualları yazılmışdır.

Müəlliflər kollektivi dərsliyin irihəcmli və bahalı olmasını da nəzərə almışlar. Ona görə də kağız variantının nəşrindən əvvəl onun elektron variantı hazırlanmış, müəllimlər, tələbələr və müxtəlif ixtisaslı cərrahlar tərəfindən dərsliyə olan böyük tələbatı nəzərə alaraq, əlçatanlıq məsələsi də həllini tam tapmışdır. Belə ki, dərsliyin elektron variantı həm pdf, həm də online formatında kafedranın web-site-sində (www.bck.az) yerləşdirilmişdir. İstifadəçilər Google Scolary axtarış sistemində açar sözlərdən birini (dərsliyin, bölmənin və ya hər hansı mövzunun, xəstəliyin və ya patoloji vəziyyətin adı) yazmaqla e-dərsliyi və ya onun istənilən bölməsini (mövzusunu) əldə, mobil telefonlarına və ya fərdi kompüterlərinə yükləyə, istəklərinə görə çap edə bilərlər. Özü də bu prosesin icrası istənilən zaman və məkan şəraitlərində mümkündür.

Dərsliyin nəşrinə qədərki dövrdə o, universitetin və Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin yuxarı kurs tələbələri, müəllimləri, Həkimləri Təkmilləşdirmə İnstitutunun müdavimləri və müəllimləri, praktik cərrahlar tərəfindən 10 min dəfədən artıq yüklənilmişdir. Təkcə bu fakt ona marağın oluqca yüksək olduğunun birmənalı sübutudur. Elmi-tibbi ictimaiyyət tərəfindən qısa müddətlərdə dərsliyə yüksək qiymət verilmiş, mətbuatda və sosial şəbəkələrin Azərbaycan seqmentində müsbət rəylər, şərhlər dərc olunmuşdur.




"Cərrahi xəstəliklər" dərsliyinin elektron variantı digər üstünlüklərə də malikdir. Belə ki, istənilən mövzuya aid vizual materiallar, instrumental diaqnostika üsullarının (ultrasəs müayinəsi, endoskopiya, kompüter tomoqrafiyası, maqnit-rezonans tomoqrafiyası və s.) nəticələri, cərrahi əməliyyatların tam gedişi və ya fraqmentar hissələrindən ibarət videofilmlər yerləşdirilmişdir. Onlara baxış biliklərin möhkəmləndirilməsində və qalıcı olmasında mühüm əhəmiyyət kəsb edir.

"Cərrahi xəstəliklər" elektron dərsliyinin I nəşrinin elektron, disk və kağız variantları ölkəmizdə ərsəyə gəlmiş ilk və modern dərslikdir. Onun dərci tələbələr, müəllimlər və müxtəlif ixtisaslı həkimlər tərəfindən müsbət qarşılanacaq, digər tərəfdən başqa ixtisaslar üzrə analoji dərsliklərin və dərs vəsaitlərinin nəşr edilməsi, elektron variantlarının hazırlanması üçün stimul verəcəyi düşüncəsindəyik.

**Qədir ASLAN,**
**"Respublika".**


## "Azərbaycan Dəmir Yolları" QSC-nin Həkim-Sanitar Xidmətinin Yol Gigiyena və Epidemiologiya Mərkəzi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**
**Lot-1.** Dezinfeksiyaedici vəsaitlər

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı 70 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Bank rekvizitləri:*
*VÖEN: 1600277401*
*Hesab AZ23AİİB38060019440151384115*
*Adı: Kapital Bank ASC Binəqədi filialı*
*VÖEN: 9900003611 Kodu:200156*
*Müxbir h.AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T BİK AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 25 oktyabr 2019-ci il saat 15:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 01 noyabr 2019-cu il saat 15:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 04 noyabr 2019-cu il saat 12:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**



TƏKRAR

## Kəlbəcər Rayon İcra Hakimiyyəti

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**Lot-1.** Kəlbəcərli məcburi köçkünlərin sıx məskunlaşdıqları Gəncə şəhəri, Gülüstan qəsəbəsi, ADAU-nun 6 saylı yataqxanasının ətrafı, Ehsan bulağından Kəlbəcər rayon 55 saylı tam orta məktəbinə və həmin məktəbdən Qərərgaha gedən mərkəzi yolun sağ sahilində yerləşən məhəllələrarası yollarda təmir-bərpa və Ağdam rayon 1-ci dörd yol qəsəbəsində müvəqqəti məskunlaşmış Kəlbəcər rayonundan olan məcburi köçkun ailələrinin yaşadıqları məhəllə daxilindən məktəb istiqamətində gedən mərkəzi yolun bərpası işlərinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdır.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu, tender elanının qəzetdə çıxdığı gündən etibarən Gəncə şəhəri 1500 ailəlik yeni yaşayış məhəlləsi ünvanından ala bilər.

**Əlaqələndirilən şəxs: Zamanov Kazım H.o**
**Tel: (022) 267-50-10**
**Lot-1 - 30.0 (otuz) manat**

*A.1 Emitent (ödəyən) bank*
*Adı: Kapital Bank ASC Kəpəz filialı*
*Kodu: 200286*
*VÖEN: 9900003611*
*Müxbir hesab: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. AİİBAZ2X*
*Kəlbəcər YXO*
*Hesab N: AZ65AİİB32051019442800201128*
*VÖEN: 5800005801*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İstirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə istirak etmək üçün yazılı müraciət (müraciətdə müəssisənin adı, yerləşdiyi ünvan, poçt indeksi, telefon nömrəsi, rəhbərin adı və soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);*

*- tenderdə iştirak haqqının ödənilməsinə dair bank sənədi;*

*- tender təklifi;*

*- tender təklifinin 1 (bir) faizi həcmində bank təminatı;*

*- Azərbaycan Respublikasında vergilırə və digər icbari ödənişlərə dair yerinə yetrilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayışlar;*

*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- İddaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- İddiaçıların müvafiq malları üzrə mənşə və uygunluq sertifikatları.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla 19.10.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş və imzalanmış ikiqat zərfdə 04.11.2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05.11.2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tender zərflərinin açılışı prosedurunda iştirak edə bilərlər.

**Tender Komissiyası.**



## BİLDİRİŞ

"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti tərəfindən sosial media marketinqi xidmətlərinin satın alınması üzrə 04 oktyabr 2019-cu il tarixində "Respublika" qəzetində verilmiş açıq tenderin ixtisas göstəricilərinə dair sənədləri 25 oktyabr 2019-cu il saat 18:00 tarixinə, tender təklifi və bank təminatı sənədləri 04 noyabr 2019-cu il saat 18:00 tarixinə keçirilmişdir. İddiaçıların təklifləri 05 noyabr 2019-cu il saat 15:00 tarixində açılacaqdır.

## BİLDİRİŞ

"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti tərəfindən işçilərin könüllü tibbi sığortasının satın alınması üzrə 01 oktyabr 2019-cu il tarixində "Respublika" qəzetində verilmiş açıq tenderin ixtisas göstəricilərinə dair sənədləri 22 oktyabr 2019-cu il saat 18:00 tarixinə, tender təklifi və bank təminatı sənədləri 31 oktyabr 2019-cu il saat 18:00 tarixinə keçirilmişdir. İddiaçıların təklifləri 01 noyabr 2019-cu il saat 15:00 tarixində açılacaqdır.

DƏDRX-nin Xaçmaz Ərazi İdarəsi tərəfindən Gəndab kənd sakini Mahmudova Xanımzadə Qədəş qızının adına verilmiş çıxarış (Rey-304013004854) 09.12.2009 və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

DTXK-nın Şabran rayon şöbəsi tərəfindən Ağayev Telman Şirəli oğlunun adına verilmiş JN-2782 (kod-30401004) saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Seyidov Mircəlal Mirsəyid oğluna məxsus Bakı şəhəri, Xətai rayonu General Şıxlinski küçəsi N 47 "T" ünvanının HDQHDƏDR çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.



Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az

*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
05.10.2019